**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.198**

**MƏLƏK MƏMMƏDOVA***

# GÖRÜŞ BABAYEVİN DƏZGAH HEYKƏLTƏRAŞLIĞINDA PLASTİK İFADƏNİN ƏKSİ

*Azərbaycan heykəltəraşı Görüş Babayevin geniş bədii yaradıcılıq irsinə malikdir. Əməkdar rəssam, heykəltəraş Görüş Babayevin böyüdüyü ailə də, aldığı təhsil də, gördüyü məktəb də onu istedadlı və hərtərəfli sənətkar kimi yetişməsində mühüm rol oynamışdır. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində klassik heykəltəraşlıq ənənələrinin davamçısı Pyotr Sabsaydan, milli heykəltəraşlığımızın sütunlarından olan Cəlal Qaryağdıdan plastika sənətinin sirlərini öyrənmiş, V.Muxin adına Ali bədii-sənaye məktəbinin (keçmiş Baron Ştiqlits adına Rəssamlıq Akademiyasında təhsilini davam etdirmişdir. XX əsrin 60-cı illərində Sankt-Peterburqda İ.Y.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (keçmiş Rusiya Rəssamlıq Akademiyası) dərs deməsinə baxmayaraq prof. V.Rıbalkodan dərs almış, hər zaman öz üzərində çalışmışdır. Görüş Babayevin bədii yaradıcılığı bədii-estetik xüsusiyyətləri ilə, milli ənənələrə sadiqliyi ilə hər zaman fərqlənmişdir. Onun "M.Ş.Vazeh", "Məhəmməd Füzuli", "Tofiq Abbasov", "M.V.Vidadi", "Şair", "Sikeyros", "Dieqo Rivera", "M.Ə.Sabir" kimi əsərləri zahiri tutumu və eyni zamanda daxili mənalanması ilə fərqlənir. Məqalə heykəltəraş, əməkdar rəssam Görüş Babayevin yaradıcılığının tədqiqinə həsr olunmuşdur.*

***Açar sözlər:*** *heykəl, Görüş Babayev, dəzgah, obraz, portret, plastika.*

## Giriş

Təsviri sənətin ayrılmaz tərkib hissəsi olan heykəltəraşlıq sahəsində, dəzgah heykəltəraşlığı nümunələrinin açıq məkanda geniş ictimaiyyətə təqdim olunmaq və ətraf mühitə təsir göstərmək missiyasından uzaq olduğundan və əsasən sərgi və muzey ekspozisiyalarında göstərilmək üçün nəzərdə tutulduğundan buraxılan səhvlərin ziyanı çox az olur. Bu prinsiplər, digər tərəfdən bu sahədə yaradılan əsərlər bilavasitə müəllifin fərdi duyğularının ifadəsi olduğundan, başqa sözlə desək, əlavə iddia daşıyıcısı olmadığından və çox vaxt da heykəltəraş emalatxanasının daimi eksponatına çevrildiyindən ona qarşı hansısa tələbləri qoymaq da münkün deyildir. Bütün bunlarla yanaşı demək lazımdır ki, dəzgah heykəltəraşlığı nümunələri insanlara daha yaxın olan mövzu və hiss-duyğuların plastik daşıyıcıları kimi daha tutumlu bədii-estetik təsir gücünə, ovqat yaratmaq məziyyətlərinə malik olmasına rəğmən, onlarla təmasda olanlara daha yaxındırlar. Bu prinsipləri öz yaradıcılıq aləmində daim açıq şəkildə yerinə yetirən heykəltəraşlarımızdan biri əməkdar rəssam, heykəltəraş Görüş Babayevin yaradıcılığında açıq şəkildə izləmək mümkündür.

## Əsas təhlil

Əməkdar rəssam, heykəltəraş Görüş Babayevin yaradıcılığı çoxşaxəliliyi ilə seçilir. Onun müxtəlif dövrlərdə yaratdığı sənət əsərləri bədii həllinə görə daim fərqlənmişlər. Görüş Babayev 1943-cü ildə yazıçı Nurəddin Babayevin ailəsində dünyaya göz açmışdır. Yaradıcılıqla zəngin olan bir ailədə doğulub böyüməsi və onun gələcəkdə rəssamlıq sənəti ilə məşqul olmasına heç bir qadağaların olmamasına gətirib çıxartmışdır. Beləliklə ailənin yaxın dostu olan xalq rəssamı Cəlal Qaryağdının təkidi ilə Görüş Babayev 1959-cu ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin heykəltəraşlıq fakültəsinə daxil olmuş və bu ixtisasın sirlərinə yiyələnə bilmişdir. Beləcə, Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil aldığı illərdə (1959-1964) Görüş Babayev, əvvəlcə klassik heykəltəraşlıq ənənələrinin davamçısı kimi tanınan Pyotr Sabsaydan, sonra isə, milli heykəltəraşlıq məktəbimizin tanınmış nümayəndəsi olan realist sənəktar Cəlal Qaryağdıdan plastika sənətinin sirlərini hərtərəfli şəkildə öyrənməyə nail olmuşdur. Heykəltəraş daim yaradıcılıq aləmində yerinə yetirdiyi sənət əsərlərinin kompozisiya tamlığına və onların obraz daşıyıcılığının

həllinə görə Cəlal Qaryağdıdan aldığı dərslərin güclü təsiri olduğunu açıq şəkildə etiraf edir. Görüş Babayev Bakıda aldığı ixtisas təhsilindən sonra bir çox həmyaşıdları kimi Leninqrada (indiki Sankt-Peterburq) gedir və uğurla imtahan verib V.Muxin adına Ali bədii-sənaye məktəbinin (keçmiş Baron Ştiqlits adına Rəssamlıq Akademiyası) "Monumental heykəltəraşlıq" fakültəsinə daxil oldu. Qeyd edək ki, bu məktəb elə sovet dönəmində də özünəməxsus tədris ənənələri ilə başqalarından fərqləndirdi. Əgər Sankt-Peterburqun və Moskvanın nüfuzlu akademik ali təhsil ocaqlarında sovet ideoloqları başlıca olaraq klassik sənət ənənələrinin gənc yaradıcılara aşılanmasına, onların "sosialist realizmi" bədii prinsipinə əsaslanmasına nail olmağa çalışırdılarsa, "Muxinka"da (bütün zamanlarda G.Nurəddinoğlunun təhsil aldığı məktəbi qısaca olaraq belə adlandırırdılar) və onun kimi SSRİ məkanında mövcud olan bir-iki məktəbdə gənc yaradıcıları "şəkil çəkmək"dən uzaq olan, dünyaya yaradıcı-rəssam gözü ilə baxmağa, azad fikirliliyə hazırlayırdılar. Onun Sankt-Peterburqda İ.Y.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (keçmiş Rusiya Rəssamlıq Akademiyası) dərs deməsinə baxmayaraq sovet rəssamlığına yeni nəfəs gətirən Y.Y.Moiseyenkonun həyat yoldaşı professor Valentina Lavrentyevna Rıbalkodan dərs almasının (1964-1969) sonralar Azərbaycan heykəltəraşlıq məkanında o vaxta qədər mövcud olmayan plastikanın improvizələrlə müşayiət olunan lirik-poetik tutumuna nail olmasında duyulası rolu olmuşdur. Bu tendensiyalara hərtərəfli şəkildə yiyələnən gənc heykəltəraş Görüş Babayevin orta və ali ixtisas təhsili illəri arxada qalır və artıq yaradıcılıq aləminə qədəm qoyur.

Ail təhsilini başa vurduqdan sonra Vətənə dönən Görüş ata yurdu Gəncə şəhərinə gedir və dörd il buradakı Məktəbəqədər Pedaqoji Məktəbdə müəllim işləyir. Həmin müddətdə SSRİ Rəssamlıq Akademiyasının Bakıda fəaliyyət göstərən aspiranturasında təhsil alır. Materialı misdən olan hazırladığı üçfiqurlu "Aşıqlar" kompozisiyası da onun daşıdığı professional vərdişləri daha da kamilləşdirdiyini göstərən ilk nümunə olur.

Görüş Babyevin təhsilini bitirdikdən sonra yaradıcılığının bədii-estetik xüsusiyyətlərini ümumiləşdirməli olsaq, onda heykəltəraşın milli ənənəyə hədsiz dərəcədə sadiq olduğunu açıq şəkildə vurğulamalıyıq. Əslində onun ruhundan qaynaqlanan bu yaradıcı-mənəvi coşqunluğu onun bütün yaradıcılığında hiss etmək mümkündür. Görüş Babayevin yaradıcılıq aləmində olan sənət əsərlərinə nəzər yetirəndə təkcə milli bədii çərçivə ilə məhdudlaşdığını söyləmək də düzgün olmazdı. Belə ki, müxtəlif mövzuların bədii şərhində onun ümumi fikir daxilində bəşəri və milli dəyərlərin uğurlu həlinin əldə edə bilməsini, bununla da əsərlərinin müasirliyini şərtləndirdiyini müşahidə etmək mümkündür. Onun yaradıcılığı boyu yaratdığı belə kompozisiyaların daşıdıqları estetik həlli, daha dəqiq desək, reallıqla şərtiliyin dəqiq tapılmış nisbətinin ifadəsi olduğundan bu və ya digər axtarışlarla dolu mərhələnin ümumiləşdirici nəticəsi kimi qəbul olunurlar. Heykəltəraşın yaradıcılığının ilk dövrlərindən başlayaraq düşündürücü mövzulara müraciət etməsi açıq şəkildə özünü göstərir. Görüş Babayevin Sankt-Peterburq kimi zəngin bədii ənənələrə malik olan, nüfuzlu sənətkarlıq ocaqları ilə məşhurlaşan bir şəhərdə təhsil alması nəinki onun özünəməxsus yaradıcılıq dəst-xəttinin müəyyənləşməsinə, həm də müttərəqqiliyi ilə seçilən fərdi bədii təfəkkürünün yetişməsinə kömək etmişdir.

Əməkdar rəssam Görüş Babayev respublikamızla yanaşı qardaş Türkiyə Cümhuriyyətində də geniş yaradıcılıq diapazonuna malik heykəltəraşlardan sayılır. Onun zənginliyi ilə seçilən bədii irsini monumental, dəzgah heykəltəraşlığı, eləcə də rəngkarlıq və qrafika sahəsində bir-birindən fərqlənən bədii tutumuna görə yaratdığı nümunələri təşkil edir.

Görüş Babayevin 1970-ci illərdən başlanan sənət axtarışları zaman etibarilə artıq bir qərinəyə çatmışdır. Əsərləri özünəməxsus dəst-xətti ilə seçilən heykəltəraşın ilk yaradıcılıq dövrü Azərbaycanda milli kimlik və müasirlik tendensiyalarının baş qaldırdığı dövrə təsadüf etmişdir.

Hələ tələbəlik illərindən başlayaraq bir çox adi peşə adamlarının portretləri və müxtəlif mövzulu kiçik əsərlərlə yanaşı, özündə xalqımızın uzaq-yaxın tarixini, qəhrəmanlıq salnaməsini əks etdirən kompozisiyalar yaratmışdır. Bu da heç şübhəsiz gənc tişə ustasının yaradıcı potensialına inamın göstəricisi idi.

Görüş Babayevin geniş yaradıcılıq fəaliyyətinin, fərdi dəst-xəttinin təşəkkülü ölkəmizdə ictimai və milli şüurun yüksəliş keçirdiyi, şəhərlərdə quruculuq işlərinin genişləndiyi, incəsənətdə yeni üslub axtarışlarının müşahidə olunduğu illərlə qırılmaz surətdə əlaqədardır. Milli ənənələrimizdən bəhrələnən Görüş Babayev yaradıcılığı Azərbaycan incəsənətinə yaddaqalan töhfə sayılmaqla yanaşı, onun həm məzmunca həm də formaca zənginləşməsinə, bütünlükdə isə ümumi inkişafına xeyli xidmət göstərdiyini sərgiləməkdədir.

Heykəltəraşlığın müxtəlif janrlarında müvəffəqiyyətlə çalışan Görüş Babayev incə plastik duyuma malikdir. Sənətkarın yığcam, aydın və ifadəli vasitələrlə düzəltdiyi müxtəlif xarakterli surətlərə psixoloji əhval-ruhiyyə, coşqunluq və daxili dinamizmlə aşılanmışdır. Odur ki, istedadlı heykəltəraşın diplom işindən tutmuş son dövrdə yaratdığı əsərlərinə kimi hamısı duyğulandırıcı və yaddaqalan xarakterlər silsiləsi kimi qəbul olunurlar.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərmin Eminbəyli qeyd edir ki, "Görüş Babayev davamlı axtarışları ilə işlərində kompozisiyanın statikliyini, durğunluğunu aradan qaldırmağa çalışır, dolğun psixoloji obraz yaradırdı. Bu nümunələrdə plastikanın konstruktiv əsasını təşkil edən forma-biçim aydınlığını və təbiiliyini dərk etmə təmayülləri çox qabarıq, duyulan idi"(5, s.38).

Təsviri sənətin digər sahələri kimi öz-özlüyündə duyulası janr əlvanlığına malik olan heykəltəraşlığın bədii ifadə imkanları təkcə monumental sənət nümunələri ilə məhdudlaşmır. Daha çox özünün mövcudluğunu müxtəlif miqyaslı sərgilərdə və muzey ekspozisiyalarında sərgiləyən dəzgah heykəltəraşlığı onun məhz belə sahələrindən birini təşkil edir. Milli heykəltəraşlığımızın maraqlı səhifələrindən sayılan dəzgah plastikası çox vaxt daşıdığı ifadə vasitələrini rəngarəng forma-biçimlərdə və ən müxtəlif materiallarda ifadəsi ilə daim tamaşaçı diqqətini özünə çəkir. Bu sahədə çalışan hər bir heykəltəraşın yaradıcılığında dəzgah heykəltəraşlığının aparıcı yer tutmasının kökündə də elə bu xüsusiyyətlər durur. Dəzgah heykəltəraşlıq sahəsində daim biri-birindən maraqlı mövzular yerinə yetirən sənətkarlardan biri də əməkdar rəssam Görüş Babayev olmuşdur. Onun kiçik plastika sahəsində yerinə yetirdiyi əsərlərin bədii daşıyıcılığı əsasən həyati prinsiplər üzərində durur. Daim axtarışarda olan sənətkarın mövzu axtarışları biri-birindən maraqlı olmuşdur. Yaratdığı hər bir dəzgah xarakterli əsərləri əsasən ideyanın açıq şəkildə təqdimi ilə insanin yaddaşında həkk olunur.

Görüş Babayevin hazırladığı və bu günə kimi də az qala onun tanınma nişanına çevrilən məşhur "Sikeyros" əsərinin 1976-cı ildə Ümumittifaq sərgisində sənət xiridarlarını ovsunlaması da gənc heykəltəraşın arxada qalan kamilləşmə dövrünü uğurla başa vurmasının daha bir ifadəsi oldu. Elə həmin sərgidən sonra gənc tişə ustasının Ümumittifaq Gənclər Mükafatına layiq görülməsi isə onun özünü artıq qabarıq göstərməyə başlayan istedadına verilən rəsmi dəyərləndirmənin göstəricisi idi. SSRİ Rəssamlar İttifaqının bu portreti "İlin portreti" elan etməsi (1976) isə portret janrının bədii imkanlarının genişliyini özündə əks etdirən bu əsərə professional münasibətin ifadəsi sayıla bilər. Yeri gəlmişkən qeyd edək ki, bu onun sənət uğurlarına verilən yeganə qiymət olmadı.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Hökümə Səfərova-Ağasoy qeyd edir ki, "Görüş Babayevin bütün yaradıcılığı boyu heykəltəraşlıqda mövcud normaları dağıtmaqdan çəkinməyərək yalnız düşündüyünü ifadə etmək kimi sənət meyarının portretlərdə də tətbiq olunduğunu dilə gətirməliyik.

Odur ki, özünün fəlsəfi miqyasına və psixoloji ümumiləşdirmələrinə görə fərqli görünən belə əsərlər dünyaya "Görüş Babayev baxışı"nın yaranmasını şərtləndirmişdir"(6, s.84).

Hələ tələbəlik illərindən özünün müxtəlif xarakterli insanların daxili aləminə nüfuz etmək bacarığını sərgiləyən heykəltəraşın portretlərinin plastik şərhində bu fərqli psixoloji tutumu hiss etmək mümkündür. Onun portretlərinin çoxu yaradıcı insanlara həsr olunsalar da, onların bədii şərhində rəngarənglik duyulur. Belə ki, "M.Ş.Vazeh" (1965) ilə "Məhəmməd Füzuli" (1968), "Tofiq Abbasov"la (1970) "M.V.Vidadi" (1972), "Şair"lə (1976) "Sikeyros" (1976), "Dieqo Rivera" (1980) ilə "M.Ə.Sabir"in (1987) elə zahiri tutumunda obrazların iç dünyasında qövr eyləyənlərin plastik ifadəsini görmək mümkündür.

Onun "Qızım", "Şahzadə" və s. əsərlərində də müxtəlif yaşlı və mövqeli insanların psixoloji durumuna inandırıcı görkəm vermək istəyi qabarıqdır.

Xarici səfərlərdə olan yaradıcıların öz təəssüratlarını bədiiləşdirmək ənənəsinə sadiq qalan Görüş Nurəddinoğlu də 1990-cı ildə Hindistanla təmasını bir neçə əsərdə ifadə etmişdir.

Tuncdan tökülmüş "Hindistan haqqında xatirə" (1991) əsərini bu mənada müəllifin qədim və özünəməxsus mədəniyyətə malik ölkədən aldığı zəngin təəssüratın gözoxşayan nəticəsi hesab etmək olar.

Tişə ustasının çoxşaxəli yaradıcılığında medalyer sənəti nümunələrinin yer almasını müəyyən qədər onun detal yığcamlığı və ifadə şərtiliyi ilə səciyyələnən dəst-xəttinin bu özünəməxsus plastik düşüncə tələb edən sahə ilə yaxınlığı ilə əlaqləndirmək olar. Heykəltəraşın bu sahəyə meylinin yaradıcılığında davamlı şəkil alan xronologiyası hələ 70-ci illərdən başlanır.

**Nəticə**

Onun müxtəlif illərdə ərsəyə gətirdiyi "M.V.Vidadi" (1972), "M.Ə.Sabir" (1987), "M.Füzuli" (1996) və s. medallara fikir məcmusunun lakonik dillə ifadəsi səciyyəvidir. Medalların ölçü etibarilə kiçikliyi və bunun fəaliyyət dairəsini məhdudlaşdırması müəllifdən bütün mənalarda kifayət qədər "qənaətcil" olmağı tələb etdiyindən, Görüş Nurəddinoğlu belə işlərində az qala "miniatürçü"dür. Onun medallarını özündə şərtiliklə improvizəni qoşalaşdıran "poetik miniatürlər" də adlandırmaq olar.

Ən müxtəlif janrların dəzgah heykəltəraşlığında yer alması qarşılığında bu tendensiyanın bütün mənalarda daha tutumlu məna-məzmun, forma-biçim axtarışlarında özünü büruzə verdiyini vurğulamalıyıq. Bu istiqamətdə çox səmərəli fəaliyyət göstərən heykəltəraşlarımızdan biri də əməkdar rəssam Görüş Babayev olmuşdur.

## ƏDƏBİYYAT


1. Azəri, L. Səmaya boylanan rənglər // Mədəniyyət qəzeti, 28 fevral 2014, s. 8.
2. Əliyev, Z. Plastikanın poetik çalarları. Bakı: SBS. 2013, 142 s.
3. Cəbrayıloğlu, E. Heykəltəraşın real görünən arzusu // Ədalət qəzeti, 12 aprel 2011.
4. Muradoğlu, N. "Kitabi-Dədə Qorqud" abidəsi Azərbaycanın milli kimliyidir // "Xalq qəzeti", 2014, 2 fevral, s.7.
5. Eminbəyli, N. Azərbaycan heykəltəraşlığında portret janrının inkişaf mərhələləri [Mətn]: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: Bakı: 2018.
6. Səfərli-Ağasoy, H.. Müstəqillik dövründə Azərbaycanın dəzgah heykəltəraşlığı [Mətn]: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: Bakı: 2016, 131 s.


***Azərbaycan Rəssamlıq Akademiyasının magistri***

***E-mail: mmelek02@gmail.com***

**Malak Mammadova**

## REFLECTION OF THE PLASTIC EXPRESSION IN GORUSH BABAYEV'S EASEL SCULPTURE

The Azerbaijani sculptor Gorush Babayev has a wide artistic heritage. The family in which he grew up, the education he received and the school he saw played an important role in raising him as a talented and comprehensive artist. He studied and learned the secrets of plasticity art from Peter Sabsay at Art school named after Azim Azimzade, the follower of classical sculpture traditions Jalal Garyagdy, one of the pillars of our national sculpture and continued his studies at the Higher Art-Industrial School (former Academy of Arts named after Baron Shtiglitz). Despite the fact that he taught in the 60s of the 20th century in St. Petersburg at the Institute of Painting, Sculpture and Architecture named after I.Y.Repin (former Russian Academy of Arts) he got education from the Professor V.Ribalko and worked on himself all the time. Gorush Babayev's artistic creativity has always been distinguished by its artistic and aesthetic features and adherence to national traditions. His works such as "M.Sh.Vazeh", "Mahammad Fuzuli", "Tofig Abbasov", "M.V.Vidadi", "Poet", "Sikeyros", "Diego Rivera", "M.A.Sabir" differ in the external capacity and at the same time internal meaning. The article is devoted to the study of activity of sculptor, Honored Artist Gorush Babayev.

**Keywords:** *sculpture, Gorush Babayev, easel, image, portrait, plasticity*

**Малак Маммадова**

## ОТРАЖЕНИЕ ПЛАСТИЧЕСКОЙ ВЫРАЗИТЕЛЬНОСТИ В СТАНКОВОЙ СКУЛЬПТУРЕ ГЁРУША БАБАЕВА

Азербайджанский скульптор Гёруш Бабаев обладает огромным творческим наследием. Семья, в которой вырос заслуженный художник и скульптор Гёруш Бабаев, полученное им образование, школа, которую он прошёл, сыграли важную роль в его становлении как талантливого и разностороннего скульптора. В Художественном училище имени Азима Азимзаде он постигал секреты пластического искусства у последователя классических традиций скульптуры Петра Сабсая и одного из столпов нашей национальной скульптуры Джалала Гарягды, а продолжил свое образование в Высшем художественно-промышленном училище имени В.Мухина (бывшая Академия художеств имени барона Штиглица). Несмотря на преподавание в 1960-х годах в Институте живописи, скульптуры и архитектуры имени И.Е.Репина (бывшая Российская академия художеств) в Санкт-Петербурге, он брал уроки у профессора В.Рыбалко и всегда работал над собой. Творчество Гёруша Бабаева всегда отличалось художественно-эстетическими особенностями и верностью национальным традициям. Такие его работы, как «М.Ш.Вазех», «Магомед Физули», «Тофик Аббасов», «М.В.Видади», «Поэт», «Сикейрос», «Диего Ривера», «М.А.Сабир» отличаются своей внешней емкостью и в то же время внутренним смыслом.

Статья посвящена исследованию творчества скульптора, заслуженного деятеля искусств Гёруша Бабаева.

**Ключевые слова:** *скульптура, Горуш Бабаев, мольберт, изображение, портрет, пластичность*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**